# Azərbaycanla Şimali Makedoniya arasında əlaqələr inkişaf edir

Mayın 11-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Makedoniya Türk Demokrat Partiyasının sədri, millət vəkili Baycan İlyas və partiyanın sədr müavini, Şimali Makedoniyanın əmək və sosial siyasət nazirinin müavini Enver Hüseyin ilə görüşüb.

Musa Quliyev qonaqları salamlayaraq onlara Milli Məclisin Sədri Sahibə Qafarovanın salamlarını çatdırıb. Azərbaycanla Şimali Makedoniya arasında dost və qardaş münasibətlərin olduğunu deyən komitə sədri bildirib ki, iki ölkə arasında müxtəlif istiqamətlərdə əməkdaşlıq inkişaf edir. Qarşılıqlı səfərlər və keçirilən görüşlər bu baxımdan çox önəmlidir.

Komitə sədri iki ölkə arasında əlaqələrin genişləndirilməsində parlamentlərin xüsusi rolundan danışıb. Azərbaycan Milli Məclisində Şimali Makedoniya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun fəaliyyət göstərdiyini deyib. Deputatlarımızın həm ikitərəfli qaydada, həm də beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlığının əhəmiyyətli olduğunu vurğulayıb.

Milli Məclisdə Yeni Azərbaycan Partiyasını təmsil etdiyini söyləyən Musa Quliyev Makedoniya Türk Demokrat Partiyası ilə əlaqələrin daha da möhkəmləndirilməsinin vacibliyini qeyd edib. Komitə sədri 44 günlük Vətən müharibəsində əldə etdiyimiz zəfərdən bəhs edib. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun torpaqlarımızı 30 illik erməni işğalından azad etdiyini, ərazi bütövlüyümüzü bərpa etdiyini vurğulayıb. Hazırda Qarabağda yenidənqurma və abadlıq işlərinin sürətlə həyata keçirildiyini diqqətə çatdırıb. Qeyd edib ki, bu sahədə Şimali Makedoniya şirkətləri də yaxından iştirak edə bilərlər.

Makedoniya Türk Demokrat Partiyasının sədri, millət vəkili Baycan İlyas ölkəmizə ilk dəfə səfər etdiklərini bildirib. Qonaq iki partiya arasında əlaqələrin dövlətlərimiz arasında münasibətlərin möhkəmlənməsinə xidmət etdiyini, bu baxımdan imzalanan Əməkdaşlıq Memorandumunun önəmli olduğunu söyləyib.

Baycan İlyas Azərbaycanın türk dünyasının çox önəmli dövlətlərindən biri olduğunu və ölkələrimizin tarixi, mədəni, dil, din baxımından yaxın olduqlarını söyləyib. O, Şimali Makedoniyanın Azərbaycanla münasibətlərin inkişafında maraqlı olduğunu və siyasi əlaqələrin möhkəmləndirilməsinin önəmini qeyd edib.

Qonaq Azərbaycanın sürətli inkişafından məmnunluq duyduğunu söyləyib, Bakı ilə bağlı xoş təəssüratlarını bölüşüb. O, ölkəmizin Qarabağda əldə etdiyi qələbə münasibəti ilə təbriklərini çatdırıb və bu zəfərdən qürur duyduqlarını vurğulayıb.

Şimali Makedoniyanın əmək və sosial siyasət nazirinin müavini Enver Hüseyin ölkəsinin Azərbaycanla ortaq dəyərləri paylaşdığını söyləyib, türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsinin əhəmiyyətindən danışıb. Qonaq Azərbaycanda gedən hərtərəfli inkişafdan söhbət açaraq, xüsusilə DOST mərkəzlərinin fəaliyyəti ilə yaxından tanış olduğunu və bunu təqdir etdiyini söyləyib.

***Aydan XƏLİLOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 12 may.- S.2.